

# Sanki dünən qarşılamışdıq...

## BU GÜN İSƏ 2006-CI İLƏ "ƏLVİDA!" SÖYLƏYİRİK...

İstər-istəməz yola saldığımız ilə nəzər yetirir, ötən günləri göz önünə gətiririk. Nazir kimi fəaliyyətinin 15-ci günü Əbülfəs Qarayev Milli kitabxanada respublika mədəniyyət işçilərinin ilk böyük müşavirəsini keçirir, ətraflı fikir mübadiləsi aparır, problemlərin aradan qaldırılması, işdə dönüş yaradılması məqsədilə müvafiq tapşırıqlarını verir. Çox keçmir ki, mühüm hadisələrin fövqündə dayanmaqla bütün mədəniyyət işçilərinə yüksək təşkilatçılıq nümunəsi göstərir. Ümumdünya Turizm Təşkilatının Berlində keçirdiyi "Beynəlxalq turizm sərgisi - 2006" sərgisi, Goranboy mədəniyyət kompleksinin açılışı, Zağulbadakı Gənclik və Turizm Mərkəzində "Gənclər nə istəyir?" devizi altında üçgünlük konfrans, Birləşmiş Ərəb Əmirliyində Azərbaycanın turizm imkanları ilə bağlı təşkil olunan biznes-forumu, Muzey mərkəzində "Azərbaycanın qayaüstü incəsənəti" diskinin təqdimat mərasimi, Yazıçılar Birliyi, Bəstəkarlar və Rəssamlar ittifaqlarında işgüzar görüşlər, "Arşın mal alan", "Yalan", "Əlvida, cənub şəhəri" filmlərinin təqdimatı, "Cavid ömrü" və "Məhkumların cənnəti" filmlərinin istehsalata buraxılması, Şərqi Avropa kinosu günləri, YUNESKO-nun Dünya İrs Komitəsinin 30-cu sessiyası, İslam Konfransı Təşkilatına üzv ölkələrin turizm nazirlərinin Bakıda keçirilən 5-ci konfransı, yerli teleradio şirkətləri ilə birgə əməkdaşlıq bəyanatı, ölkədə yayımlanan əcnəbi filmlərin dövlət reyestrinə alınması ideyasının gerçəkləşməsi, MDB ölkələri Mədəni Əməkdaşlıq şurasının Bakıda təşkil olunan 21-ci iclası, "Yaddan çıxmaz Qarabağ" Ümumrespublika İncəsənət Həftəsi, 6-cı Audiovizual Festivalı, YUNESKO-nun 60 illiyi ilə bağlı Fransa səfəri, Göyçayda Nar Bayramı və s. və i.a.

> *Taleyimizə yazılan illərdən biri ilə də vidalaşırıq. Sanki dünən qarşılamışdıq. Bu gün...*
> *Bu gün isə 2006-cı ilə "əlvida!" söyləyir, 2007-ci ili qarşılamağa hazırlaşırıq.*

Bunlar cənab nazirin bilavasitə təşkilinə və keçirilməsinə təşəbbüs göstərdiyi, eləcə də yaxından iştirak etdiyi mühüm tədbirlərin yalnız bir qismidir.

Bəli, mübaliğəsiz olaraq deyə bilərik ki, 2006-cı il ictimai, siyasi və mədəni həyatımızda öz dəst-xəttini qoydu, bol-bol uğurları ilə ötən illərdən fərqləndi.

İlin gərgin, qayğılı və məhsuldar keçəcəyi elə ilk aydanca məlum oldu. Möhtərəm prezidentimizin yanvarın 30-da bəzi nazirliklərin yenidən təşkili barədə imzaladığı fərmanın mədəniyyətimizin inkişafında nə qədər önəmli rol oynadığını qısa zaman kəsiyində vaxt özü də göstərdi. Burada bir az hadisələri qabaqlayır, həşiyə çıxır, hörmətli nazirimizin mədəniyyət və turizm sahəsində ilin yekunlarına dair keçirdiyi mətbuat konfransında söylədiyi fikirləri xatırlayırıq: *"Çox sevindirici haldır ki, 2006-cı ildə Azərbaycan mədəniyyəti və turizmi*





*sahəsində bir sıra yaddaqalan hadisələr olub. İlk öncə Azərbaycanda Rusiya ilinin çox yüksək səviyyədə keçməsi bizim üçün önəmlidir. Bu tədbirin başa çatması münasibətilə Rusiya Federal Agentliyinin rəhbəri Mixail Şvıdkoy onlara göstərilən diqqətdən çox razı qaldığını bildirib. O, gələn il ərzində Rusiyada Azərbaycan, Azərbaycanda isə mütəmadi olaraq Rusiya mədəniyyəti günlərinin keçirilməsini təklif etdi. Tədbirlərə hazırlaşırıq..."*



Deməli, 2007-ci ildə mədəniyyətin inkişafı, mədəni və tarixi abidələrimizin qorunması, teatrlarımızın təmiri, mədəni-maarif müəssisələrimizin işinin canlandırılması istiqamətində bizi daha böyük vəzifələr gözləyir. Bu mənada, İslam Konfransı Təşkilatı mədəniyyət nazirləri səviyyəsində aparılacaq işlər xüsusi əhəmiyyət kəsb edir.

*"Hazırda üç dövlət teatrında əsaslı təmir işləri aparılır. Bu addımı da dövlətin mədəniyyətə qayğısı kimi dəyərləndirməliyik. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Heydər Əliyev adına Saray və "Nizami" kinoteatrında aparılacaq əsaslı təmir işləri ilə bağlı layihələr hazırlanır. Bu binaların təmiri də bizim üçün çox vacibdir. Çünki bu gün Azərbaycana müasir standartlara cavab verən teatr, kinoteatr, konsert salonları gərəklidir. Biz 2008-ci ilə kimi Xalça Muzeyi və Muğam Mərkəzinin tikintisini yekunlaşdırmağı düşünürük..."*

Qeyd etdiyimiz kimi bu fikirlər nazirin təxminən üç həftə əvvəl ilin yekunlarına dair keçirdiyi mətbuat konfransındakı söhbətindən götürülüb. Təbii ki, ilə əsl yekun hələ bundan sonra vurulacaq. Nəticədə həyata keçirilmiş saysız-hesabsız tədbirlərin sırası bir az da genişlənəcək.

Bunlar 2006-cı ilin ömür payına düşən işlərdir. Qarşıda isə daha mühüm, daha əhəmiyyətli vəzifələr durur. Bu sırada Milli parkın görünüşünün dəyişdirilməsi, "Dədə Qorqud" kompleksinin tikintisi, Qusar rayonu ərazisində dağ xizəyi turizm bazasının inşası üçün Avstriya şirkətinin müvafiq qiymətləndirmə aparması və 2007-ci ilin yayında burada quraşdırma işlərinə başlanacağı və s. tədbirlərin olması dediklərimizə parlaq sübutdur. Bütün bunlar söz ilə işin vəhdətindən xəbər verir, hər birimizdə mədəniyyət işçisi olduğumuz üçün xüsusi qürur hissi doğurur, bizi daha əzmlə çalışmağa ruhlandırır...

***...2006-cı il başa çatır. Yeni ilin nəfəsi daha yaxından duyulur. Qədəmlərin uğurlu olsun, 2007-ci il !!!***